Bizim **AMALIMIZ**: İnteqrə olunmuş effektiv enerji həllərini təqdim edən, maraqlı tərəflərə ən yüksək dəyər yaradan, müasir beynəlxalq şirkət olmaq.

Bizim **MİSSİYAMIZ**: Azərbaycan qazmasının tarixi qabaqcıl rolunu müasir dünya enerji sənayesində davam etdirmək.

Bizim **DƏYƏRLƏRİMİZ**: Təhlükəsizlik, Keyfiyyətcillik, Dürüstlük, Yenilikçilik, Səmərəlilik, Əzmkarlıq, Birlik, Maraqlı tərəflərə yönümlülük, Cəsarətlilik.

## İNTEQRƏ OLUNMUŞ İDARƏETMƏ SİSTEMİ ÜZRƏ SİYASƏT

SOCAR-AQŞ MMC-də İSO 9001:2015, İSO 14001:2015, İSO 45001:2018 və APİ SPEC Q2 standartlarının tələblərinin əsasında İnteqrə olunmuş İdarəetmə Sistemi (İOİS) tətbiq edilmişdir.

İOİS üzrə siyasət müəssisənin məqsədlərinə, kontekstinə uyğundur və müəssisənin strateji istiqamətini dəstəkləyir.

**İOİS üzrə Siyasətin əhatə dairəsinə müəssisənin aşağıdakı fəaliyyətləri daxildir:**

Dənizdə Neft və Qaz Quyularının qazılması və Quyu Təmiri Xidmətlərinin göstərilməsi;

**Müəssisənin maraqlı tərəflərə dair öhdəlikləri aşağıdakı kimidir:**

1. *Sifarişçilər:*
   a. Yüksək-səviyyəli inteqrə olunmuş qazma və quyu xidmətlərinin təmin edilməsi
2. *Mülkiyyətçilər /Təsisçilər:*
   a. Müəssisənin gəlirinin ikiqat və EBİTDA-nın 20%-dək artırılmasına dair 3-illik strateji amalına nail olması
3. *İşçilər:*
   a. Müəssisədə tətbiq olunmuş İnteqrə Olunmuş İdarəetmə Sisteminin davamlı təkmilləşdirilməsi
   b. İşlə bağlı zədələnmə və xəstəliklərin qarşısının alınması üçün sağlam və təhlükəsiz iş şəraitinin təmin edilməsi
   c. Təhlükələrin aradan qaldırılması və STT üzrə risklərin azaldılması
   d. İşçilərin İnteqrə Olunmuş İdarəetmə Sisteminin təkmilləşdirilməsi məsələlərində məsləhətləşməsinin və həmin işlərə cəlb olunmasının təmin edilməsi
4. *Qanunvericilik orqanları:*
   a. Müəssisənin fəaliyyətinə şamil olunan qanunvericilik və digər tələblərin yerinə yetirilməsi
   b. Ətraf mühitin qorunması, o cümlədən çirklənmənin qarşısının alınması və müəssisənin konteksti nöqtəyi nəzərindən digər konkret öhdəliklər
5. *Cəmiyyət:*
   a. Sosial proqramları və layihələri tətbiq etməklə cəmiyyətin inkişafına töhfə vermək.

**İOİS üzrə siyasətin əsas prinsipləri aşağıdakılardır:**

1. Quyu tikintisinin effektivliyini artırmaq məqsədilə struktur vahidlərinin işini birgə planlaşdırmaq;
2. Mövcud qurğu və avadanlıqların etibarlığını artırmaq, ehtiyac yarandığı hallarda yeni texnika və texnologiyaları tətbiq etmək;
3. Sifarişçi tələblərinin və gözləntilərinin ən yüksək səviyyədə yerinə yetirilməsini təmin etmək;
4. İşçilərin maksimal potensialını müəyyən etməyə yönəldilən və onların inkişafına sərf olunan investisiyaların maksimal səviyyədə geri qaytarılmasını təmin edən idarəetmə sistemi qurmaq;
5. İşçilərin peşəkarlıq səviyyəsini beynəlxalq standartların tələblərinə uyğunlaşdırmaq;
6. Bütün fəaliyyət sahələrində yeniliklərin tətbiqində təşəbbüskarlıq göstərən işçi heyət formalaşdırmaq

**SOCAR-AQŞ – nin yüksək rəhbərliyi təmin edir ki, İOİS üzrə siyasət:**

1) Mövcuddur və sənədləşdirilmiş informasiya kimi işlək vəziyyətdə saxlanılır;
2) İşçilərə çatdırılır, başa düşülür və müəssisə daxilində tətbiq edilir;
3) Maraqlı tərəflər üçün əlçatandır; və
4) Yararlılığı davamlı olaraq nəzərdən keçirilir.

İmza: «SOCAR-AQŞ» Tarix: 03.06.2020